

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 32 (21.442)

18 fevral 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncə şəhərinə səfərə gedib.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev ərazidə aparılan yenidənqurma işləri barədə Prezident İlham Əliyevə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncədə "İmamzadə" dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə, Gəncəçay çayı boyunca yaradılan park-bulvar kompleksi ilə, Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olub, Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbin binasının, "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin balansında olan 240 yerlik körpələr evi-uşaq bağçasının, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının, Gəncədə hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışlarında iştirak edib.



## P.A.Nağıyevin Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Piri Abbas oğlu Nağıyev Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 fevral 2016-cı il*

## Mədəniyyət işçilərinin növbəti zona müşavirəsi keçirilib

***Fevralın 17-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Bəhruz Kəngərli adına Şərur Şəhər Uşaq İncəsənət Məktəbində tədris işinin təşkili ilə bağlı zona müşavirəsi keçirib. Şərur, Kəngərli və Sədərək rayonlarında fəaliyyət göstərən mədəniyyət müəssisələri nümayəndələrinin iştirakı ilə keçirilən müşavirəni Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natavan Qədimova açıb.***



Bildirilib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasında Mədəniyyət və Turizm Nazirliyinin qarşısında muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi məktəblərinin fəaliyyətinin gücləndirilməsi, ixtisaslı kadrların seçilməsi və düzgün yerləşdirilməsinin təmin olunması, milli dəyərlərimizin təbliği, turizm sektorunun inkişafı istiqamətində səylərin artırılması kimi vəzifələr qoyulub.

Qeyd olunub ki, nazirliyin tabeliyində hazırda 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir. Bu məktəblərdən 6-sı Şərur, 2-si Kəngərli, 1-i isə Sədərək Rayon Mədəniyyət və Turizm şöbələrinin tabeliyindədir. Həmin məktəblər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. 2015-ci ildə Sədərək Rayon Uşaq Musiqi Məktəbi üçün yeni binanın istifadəyə verilməsi bu qayğının ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində tədrisin səviyyəsinin yüksəldilməsi, məktəblərin maddi-texniki vəziyyətlərinin yaxşılaşdırılması, istedadlı uşaq və gənclərin aşkara çıxarılması və onların yaradıcılıq imkanlarının inkişaf etdirilməsindən danışan Natavan Qədimova qeyd edib ki, nazirlik tərəfindən muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üçün "Vahid tədris proqramları" adlı vəsait hazırlanıb. Həmin tədris proqramları məktəblərə paylanılıb və işin bu əsasda qurulması təmin edilib.

Bildirilib ki, məktəblərdəki şagird kontingentinin komplektləşdirilməsinin düzgün aparılmaması, bəzi məktəblərdə ixtisas dərslərinin zəif keçilməsi, qrup dərslərində vəziyyətin qənaətbəxş olmaması tədrisin səviyyəsinə də təsirsiz ötüşmür. Buna görə də rayon Mədəniyyət və Turizm şöbələrinin müdirləri və məktəb direktorları əməli fəaliyyət göstərməli, verilən tapşırıqlara ciddi əməl etməli, tədrisin səviyyəsinin yüksəldilməsi istiqamətində fəal iş aparmalıdırlar. Bundan əlavə, məktəblərdə vahid tədris proqramına əməl edilməli, unudulmaqda olan milli musiqi alətlərimizin tədrisinə diqqət artırılmalı, ixtisaslı kadrlar məktəblərə cəlb olunmalı, pedaqoji kollektivlərin potensialı artırılmalıdır.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Leyla Əlimərdanova Şərur, Kəngərli və Sədərək rayonlarındakı uşaq musiqi və incəsənət məktəblərində tədrisin səviyyəsi və təhsildəki nöqsanların aradan qaldırılması yolları haqqında danışıb.

Sonra Şərur Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Əli Qənbərovun, Kəngərli Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Məhərrəm Əliyevin və Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Rəşad İsmayılovun çıxışları olub.

## Avropa Şurasının Yerli və Regional Hakimiyyətləri Konqresinin Monitorinq Komitəsinin iclasında Azərbaycan milli nümayəndə heyətinin rəhbəri iştirak etmişdir

2016-cı il fevralın 12-də Parisdə Avropa Şurasının Yerli və Regional Hakimiyyətləri Konqresinin Monitorinq Komitəsinin iclası keçirilmişdir. Avropa Şurasının Yerli və Regional Hakimiyyətləri Konqresinin sədri Jan Klod Frekonun dəvəti əsasında Azərbaycan milli nümayəndə heyətinin rəhbəri Anar İbrahimov iclasda iştirak etmişdir. Bununla bağlı komitənin gündəliyinə "Azərbaycandakı vəziyyətlə bağlı fikir mübadiləsi" adlı məsələ salınmışdır.

Məsələ ilə əlaqədar komitənin iclasında Azərbaycan nümayəndə heyətinin rəhbəri "Azərbaycanda yerli və regional demokratiyanın vəziyyəti haqqında" çıxış edərək son 2 ildə ölkədə bu sahədə aparılan siyasət, onun nəticələri, Avropa Şurası qarşısında öhdəliklərin yerinə yetirilməsi məsələsi ilə bağlı məlumat vermişdir. Həmçinin son zamanlar ayrı-ayrı Avropa Şurası qurumlarının ölkəmizə qarşı insan hüquqlarının pozulması bəhanəsi ilə təzyiq cəhdlərinə, konqresin Varşavada keçirilmiş Monitorinq Komitəsinin və qurumun 29-cu sessiyasında açıq hiss edilən yanlış mövqeyinə etiraz bildirilərək nümayəndə heyətinin qatılmaması və etirazın mahiyyəti haqqında müzakirələrin gedişində iclas iştirakçıları məlumatlandırılmışlar.

İclasda konqresin sədri Jan Klod Frekonla Azərbaycan nümayəndə heyəti rəhbərinin yazışmalarına toxunularaq verilən cavabların və qərarların, məsələlərə dair reaksiyanın yetərli olmaması qeyd olunmuş, ümumiyyətlə, konqresin insan haqları ilə bağlı məsələlərin müzakirəsinə dair mandatının yetərli olmaması ilə bağlı fikirlər diqqətə çatdırılmışdır. Bundan başqa, katibliyin Azərbaycanla bağlı hazırladığı sənədlərə kəskin iradlar bildirilmiş və tələb edilmişdir ki, bu sənədlər dövriyyədən geri alınsın. Etirazlardan sonra tələb qəbul olunmuş və həqiqəti əks etdirməyən bütün sənədlər rəsmi sessiyanın gündəliyindən çıxarılmış, şifahi olaraq iclasda bu yanlışlığa görə üzr istənilmişdir.

Müzakirələrin sonunda Monitorinq Komitəsi bu məsələnin konqresin mart ayında keçiriləcək 30-cu sessiyasının gündəliyinə salınmayacağını bildirmiş, Azərbaycan tərəfini dialoqu bundan sonra da davam etdirməyə çağırmışdır.

Sonda Azərbaycan milli nümayəndə heyətinin rəhbəri çıxış edərək Azərbaycan tərəfinin hər zaman açıq, məzmunlu və konstruktiv dialoqun tərəfdarı olduğunu və bu siyasətini bundan sonra da davam etdirəcəyini bildirmişdir.

## Babək rayonunun Yarımca kəndi müasir yaşayış məntəqəsinə çevrilib

***Babək rayonunun Yarımca kəndinə yeni sosial obyektlərin – kənd mərkəzi, həkim ambulatoriyası və xidmət mərkəzinin inşa edilməsi, məktəb binasında əsaslı təmir işlərinin aparılması nəticəsində bu yaşayış məntəqəsi müasir görkəmə qovuşub.***

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin tikintisini həyata keçirdiyi kənd mərkəzi, həkim ambulatoriyası və xidmət mərkəzində artıq işlər başa çatdırılıb.

Həkim ambulatoriyası iki mərtəbədən ibarətdir. Ambulatoriya kənddə nümunəvi tibbi xidmətin təşkilinə imkan verəcək.

Kənd mərkəzinin binası isə 3 mərtəbəlidir. Binada icra nümayəndəliyi, bələdiyyə və digər qurumlar üçün müasir iş şəraiti yaradılıb.

Kənddə inşa edilən xidmət mərkəzinin binasında da işlər yekunlaşıb. Binanın ətrafında abadlıq işləri aparılıb, işıqlandırma sistemləri quraşdırılıb. Xidmət mərkəzində ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərəcək.

Yarımcada görülən işlər bununla məhdudlaşmır. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsi tərəfindən Yarımca kəndindəki məktəb binasında əsaslı təmir işləri həyata keçirilib. Məktəb binasının arxa tərəfində qazanxana və bufet üçün yeni bina inşa edilib. Məktəbin həyətində genişmiqyaslı abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, işıqlandırma sistemləri quraşdırılıb.



## Səyyar xidmətlər davam etdirilir

Muxtar respublikada müasir xidmət növlərinin yaradılması diqqət mərkəzində saxlanılır, dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə xidmətlərin göstərilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Belə tədbirlərin davamı kimi 2015-ci il martın 7-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yeni yaradılan səyyar xidmət üçün nazirliyə "Hundai" markalı avtomobil alınıb. Avtomobil xidmət sahələrinə uyğun olaraq, səyyar xidmətin göstərilməsi üçün kompüter, POS-terminal, fotoaparat, elektron məsafəölçən və digər avadanlıqlarla təchiz edilib.

Səyyar xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, ov silahlarının qeydiyyata alınması üzrə hüquqi xidmətlər göstərilir. Xidmət avtomobilində quraşdırılan müasir avadanlıqlar ümumvətəndaş pasportlarının, şəxsiyyət və sürücülük vəsiqələrinin yerlərdə vətəndaşlara təqdim olunmasına imkan verir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyindən aldığımız məlumata görə, 2015-ci il ərzində səyyar xidmətə 6320 müraciət olub. Onlardan 5123-ü şəxsiyyət vəsiqəsi, 1155-i sürücülük vəsiqəsi, 29-u ümumvətəndaş pasportu, 2-si ov silahlarının qeydə alınması, 11-i məhkumluq arayışı almaq üçün müraciətlərdir.

Cari ildə də yerlərdə əhaliyə səyyar xidmət göstərilir. Yanvar ayında Culfa, Babək, Sədərək rayonlarında 477 şəxsiyyət vəsiqəsi, 103 sürücülük vəsiqəsi, 18 məhkumluq haqqında arayış verilib. Fevral ayının 1-dən isə Şərur rayonunda vətəndaşlara səyyar xidmət göstərilməsinə başlanılıb. Rayonun Püsyan, Danyeri, Tumaslı, Kürçülü, Zeyvə, Qarxun, Gümüşlü, Axura, Çərçiboğan və Dizə yaşayış məntəqələrində 203 şəxsiyyət vəsiqəsi, 3 sürücülük vəsiqəsi, 3 məhkumluq arayışı haqqında müraciət olunub.

Dünən səyyar xidmət Kəngərli rayonunun Qıvraq qəsəbəsində olub, bu gün Qarabağlar kəndində öz işini davam etdirir.

**Xəbərlər şöbəsi**

## Şərur

# İnkişaf və müasirləşmə yeni mərhələyə qədəm qoyub

### Dünən...

***Dahi filosoflardan biri zamanı dünən, bu gün, sabah olmaqla üç mərhələyə ayırır. Dünən keçmiş, bu gün yaşadığımız dövr, sabah gələcəkdir. Böyük zamanla müqayisədə, bəlkə də, belə bölgü çox kiçik görünə bilər. Ancaq bir qədər dərindən düşünsək, bu bölgü ilə razılaşarıq. Məsələ ondadır ki, böyük zaman üçün belə kiçik zaman kəsiklərində insanın, cəmiyyətin nail olduqlarının mahiyyətinə vara bilərsən.***

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Səttar Əhmədovla Şərur şəhərindəki Heydər Əliyev prospektini gəzirik. Müsahibim, elə bil ki, ürəyimdən keçənləri duyub. Bir qədər dayanır, fikrini əsaslandırır:

– Bütün ömrüm bu şəhərdə, bu rayonda keçib. Sovet dönəmini də görmüşəm, bu günümü də görürəm. Yəni dünən Şərur necə idi? Bu gün dünənki Şərurdan əsər-əlamət qalıbmı? Muxtar respublikanın ən böyük rayonu, münbit torpaqları, zəhmətkeş insanları olan bu bölgə o illərdə tipik əyalət timsalında idi. Beşilliklər dövrünün ən böyük mükafatlarından biri olan qırmızı bayraqların sayı getdikcə artırdı. Əmək cəbhəsində yüksək nəticələrə nail olan torpaq adamları da mükafatsız qalmırdılar. Ancaq o illərdə belə böyük bölgədə bir beşillikdə bir obyekt tikilib istifadəyə veriləndə elə bilirdik ki, dünyanı bizə bağışlayıblar.

Şərurlular çətinliyə dözməyi bacaran insanlardır. Buna baxmayaraq, ötən əsrin 90-cı illərinin əvvəllərində onların da bəzilərində ruh düşkünlüyü sezilirdi. Beləl期 lərini qınamaq da olmurdu. Niyə? Məktəb binaları yararsız vəziyyətdə idi, təhsil ocaqları uyğunlaşdırılmış binalarda yerləşdirilmişdi. Səhiyyə xidməti unudulmuşdu, müasir informasiya texnologiyalarından istifadə barədə söhbət etməyə dəyməzdi. Elektrik enerjisi, yanacağın olmaması isə ən böyük dərdlərimizdən idi. Xidmət sahələrinin fəaliyyətini yox səviyyəsində saymaq olardı. Bu, dünən idi...

### Bu gün...

Şərur şəhərinin ən gözəl ünvanına çevrilmiş Heydər parkına daxil oluruq. Qələbəlikdir. Köhnə tanışlarım – təqaüddə olan mədəniyyət işçisi Fəxrəddin Kərimov, şair-publisist İbrahim Yusifoğlu, tibb üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının Əməkdar həkimi Nüsrət Həsənovla görüşürük. Səttar müəllimlə başladığımız söhbətə əlavə çalarlar qatılır. Bir daha o illərə qayıdırıq:

– Bu gün muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Şərur rayonunda da böyük quruculuq işləri həyata keçirilir. Sevinirik ki, Şərurun da problemləri öz həllini tapıb. İlbəil rayonda müxtəlif təyinatlı tikintilərin sayı artır. Elə 2015-ci ildə rayon ərazisində xeyli quruculuq işi görülüb. Dövlətimiz öz vətəndaşlarının yaxşı yaşaması üçün bütün imkanlardan istifadə edir. Şərurlular da var qüvvələri ilə çalışırlar ki, onlara göstərilən etimadı doğrultsunlar, muxtar respublika iqtisadiyyatının gücləndirilməsinə töhfələrini versinlər.

Bu sözləri Fəxrəddin Kərimov deyir.

İbrahim Yusifoğlu söhbətə qoşulur:

– Müxtəlif dövlət proqramlarının muxtar respublikamızda ardıcıllıqla, uğurla həyata keçirilməsi digər bölgələr kimi, bu rayonu da əsaslı surətdə, tanınmaz dərəcədə dəyişdirib. Bu gün Şərurda hər bir sahədə inkişaf, dirçəliş, yüksəliş meyilləri getdikcə sürətini artırır. Təkcə Şərur şəhərinin deyil, ucqar kəndlərin belə, siması yeniləşib. Son illərdə quruculuq işlərinin həcmi daha da artıb, miqyası genişlənib. Rayonun elə bir yaşayış məntəqəsi yoxdur ki, görkəmini dəyişməsin, orada sosialtəyinatlı tədbirlər həyata keçirilməsin. Bu müddətdə neçə-neçə kənddə yeni təhsil, səhiyyə, mədəniyyət obyektləri inşa olunub, yollar çəkilib, körpülər salınıb, su, elektrik təsərrüfatı yaxşılaşdırılıb. Bütün bunlara muxtar respublikada nail olunmuş sabitliyin və nizam-intizamın təsiri az deyil. Elə bu da əhalinin rahatlığı üçün lazımi şərait yaradıb. İnsanlar hərtərəfli qayğı ilə əhatə olunublar. Bütün bunların həyata keçirilməsi Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində mümkün olub.



Nüsrət həkimin də ürəyi doludur, doğulub boya-başa çatdığı yurd yerinin bugünkü vüsəti onu da qəlbən sevindirir:

– Son illərdə həyata keçirilən quruculuq işləri digər bölgələr kimi, bu rayonu da müasirliyə qovuşdurub. Təkcə Şərur şəhərinin deyil, ucqar kəndlərin belə, siması dəyişilib. Dünənlə kifayətlənməyən zamanın bu gün öz diktəsini ortaya qoymasına ciddi reaksiya verilməsi həyatın bütün sahələrində müasirlik ab-havası yaradıb. Bu da regionda bərqərar olunan iş prinsipinin təzahürüdür. Belə iş prinsipi hesabına adamlar hər gün bir yeniliklə rastlaşırlar. Bu, Şərur rayonunun da gündəlik həyat ritminə çevrilib. 2015-ci ildə və ələ ondan əvvəlki illərdə bölgədə illərə bərabər işlər görülüb. 2016-cı ildə bu işlərin davam etdiriləcəyi, daha böyük yeniliklər yaradılacağı şəksizdir. Ona görə də tam əminliklə demək olar ki, "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili"ndə Şərurda belə uğurların sayı daha çox olacaq.

Uzun və maraqlı söhbətimiz baş alıb gedir. 2015-ci ilin timsalında bu qədim yurd yerində görülən işlər sadalanır. Minnətdarlıq hissləri dilə gəlir. Hiss etmək çətin deyil ki, Şərur rayonunun həmsöhbət olduğum sayılıb-seçilən ziyalıları bölgənin bu gününə ürəkdən sevinirlər. Onlardan ayrılmağın, Naxçıvana qayıtmağın da vaxtı çatıb. Şərurda yaşadığım təəssüratları isti-isti qələmə almağa tələsirəm.

Yazı prosesində müsahiblərimin dediklərini xatırlaya-xatırlaya Şərur Rayon İcra Hakimiyyətindən aldığım 2015-ci ilə aid statistik rəqəmlərə baxıram.

Bəhs olunan dövrdə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 74 milyon 493 min 100 manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 3,2 faiz artaraq 69 milyon 392 min 800 manat təşkil edib.

Şərur şəhərində Aviakassa binasının, Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin, Axamaddə, Kürkənddə və Yuxarı Yaycıda kənd və xidmət mərkəzlərinin, Kürkənddə məscid və mərasim evinin, Aşağı Aralıq kəndində mərasim evinin və un dəyirmanının tikintisi başa çatdırılaraq istifadəyə verilib.

Kürkənddə, Cəlikənddə, Axamad, Yuxarı Yaycı və Kürçülü kəndlərində məktəb binaları, Cəlilkənddə həkim ambulatoriyası, mədəniyyət evi, kənd və xidmət mərkəzləri yenidən qurulub.

Sosial qayğıya ehtiyacı olan 1 nəfər Azərbaycan Vətən müharibəsi əlili üçün Yengicə kəndində fərdi yaşayış evi inşa edilib.

Hazırda Şərur şəhər 2 nömrəli tam orta məktəbinin binasında tikinti, Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün tədris korpusunda və onun yataqxanasında əsaslı tikinti və yenidənqurma işləri davam etdirilir.

Dəmirçi kəndində 2, Cəlikənd, Qarahəsənli, Çomaxtur, Düdəngə və Oğlanqala yaşayış məntəqələrinin hər birində 1 çörək istehsalı sahəsi, İbadulla, Qarxun və Məmmədsabir kəndlərinin hər birində istixana təsərrüfatı, Düdəngə kəndində tutumu 360 ton və Sərxanlı kəndində tutumu 120 ton olan soyuducu anbarlar, Tumaslı kəndində qarğıdalı istehsalı sahəsi, Dizə, Həmzəli və Havuş kəndlərinin hər birində 1 heyvandarlıq təsərrüfatı yaradılıb, Arbatan kəndində heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılıb.

Rayon sakinlərinin büdcəsinə gəlir gətirən ən önəmli sahə kənd təsərrüfatıdır. Ötən il 30 min 320 ton dənli və dənli-paxlalılar, 2504,5 ton qarğıdalı, 79,8 ton günəbaxan, 11 min 43 ton kartof, 28 min 661 ton tərəvəz, o cümlədən 4000 ton soğan, 6476 ton bostan məhsulları, 20 min 357 ton meyvə, 1435 ton üzüm istehsal olunub. Bu dövr ərzində Şərur şəhərində şirniyyat, kompot, mürəbbə və turşu istehsalı sahələri, Vərməziyar kəndində pendir istehsalı sahəsi, Mahmudkənddə isə quşçuluq təsərrüfatının yaradılması davam etdirilib.

İl ərzində ekoloji tarazlığın qorunması məqsədilə 15 hektar sahədə yeni meyvə bağı salınıb, 23,2 hektar meyvə bağında isə bərpa işləri aparılıb. Yaşıllaşdırma tədbirləri davam etdirilərək 52 min ədəd ting əkilib.

2015-ci il ərzində rayonu fasiləsiz elektrik enerjisi ilə təmin etmək üçün 65 transformator əsaslı, 138 transformator cari təmir olunub, 14 müxtəlif güclü yeni transformator quraşdırılıb. Bəhs olunan dövrdə 310 mənzilə yeni sayğac qoyulub.

Bu dövrdə 180 abonentə yeni qaz xətti çəkilib, 1959 ədəd qaz sayğacı yenisi ilə əvəz olunub.

### Sabaha inam...

*Bu statistik rəqəmlərin sayını elə o qədər də artırmaq mümkündür. Ancaq buna ehtiyac duymuram. Sadəcə onu vurğulamağı vacib sayıram ki, bu rəqəmlərin arxasında təşəbbüskarlıq, yurd yerinə bağlılıq, insanların layiq olduqları həyat tərzini təmin etmək kimi xeyirxah əməllər dayanıb. Sabaha cavabdehlik məsuliyyəti önə çəkilib. Burada Səttar müəllimin sözlərini bir daha xatırlayıram. İllər olub ki, dünəndən bu günə, bu gündən sabaha inamımız sanki iflic vəziyyətinə düşüb – dözmüşük. Bu gün isə daha xoş sabaha inam hər bir naxçıvanlının, sədəklərinin, culfalının, şərurlunun qəlbində əbədiləşib. Bu inamı hər birimizdə bu gün gördüklərimiz yaradıb.*

**Muxtar MƏMMƏDOV**

---

İstehsal müəssisələri

# Kəngərli rayonunda yeni istehsal sahəsi – "Şahanə" Mebel Fabriki qurulur

***Bazar iqtisadiyyatının tələblərinə uyğun muxtar respublikamızda sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi məqsədilə muxtar respublikamızda fəaliyyət göstərən sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, banklar və kredit təşkilatları tərəfindən onlara güzəştli kreditlər verilir. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verir, rəqabətqabiliyyətli müəssisələr həyata vəsiqə alır.***

Belə müəssisələrdən biri də Kəngərli rayonunun Qıvraq qəsəbəsində qurulan "Şahanə" Mebel Fabrikidir. Sahibkar Əli Cəfərov bizimlə söhbətində qeyd etdi ki, uzun illərdir, həyatimizdə qurduğum kiçik bir sexdə mebel istehsal edir, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olurdum. Lakin uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi zərurəti yarandı. Bu məqsədlə biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olundu. Digər sahibkarlar kimi, biz də özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bəhrələndik. Xammal və hazır məhsulların ağırtonnajlı yük avtomobilləri ilə daşınması üçün daha əlverişli yerdə – Qıvraq qəsəbəsindən keçən Naxçıvan-Sədərək magistral avtomobil yolunun kənarında müəssisə üçün 2500 kvadratmetr torpaq sahəsi ayrıldı. Ötən ilin mart ayından inşaat işlərinə başlanıldı, əraziyə elektrik, qaz və su xətləri çəkildi, transformator yarımstansiyası quraşdırıldı.

Layihəyə uyğun olaraq, burada istehsal sexi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, sərgi-satış salonu, iaşə xidməti göstərilməsi üçün yeməkxana və digər yardımçı otaqlardan ibarət yeni bina inşa olunub, müasir istilik sistemi qurulub. Müasirtipli layihə əsasında qurulan yeni müəssisə texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl edilməsinə, istehsal prosesinin konveyer üsulu ilə təşkil olunmasına, keyfiyyətli məhsul istehsalına imkan verəcək. Müəssisədə Türkiyənin "Özkonyalılar" firmasının istehsalı olan avadanlıqlar quraşdırılıb. İstehsal olunan mebellərin sifarişçilərin ünvanlarına çatdırılmasının və quraşdırılmasının da müəssisə tərəfindən həyata keçirilməsinə əlverişli şərait yaradılıb, Naxçıvan Avtomobil Zavodunun istehsalı olan yük avtomobili alınıb. İstehsal prosesinin tam avtomatlaşdırılması üçün daha müasir texnoloji avadanlıqların alınması, istehsal prosesi zamanı yaranan tozun və tullantıların kompressorlar vasitəsilə sexdən kənarlaşdırılması üçün havalandırma sisteminin qurulması, fabrikin ətrafında abadlıq işlərinin aparılması ilə əlaqədar işlər davam etdirilir. Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulan müəssisədə sınaq-yoxlama işləri aparılır.



"Əvvəllər ölkəmizdə, o cümlədən muxtar respublikamızda fəaliyyət göstərən mebel istehsalı müəssisələrinə hazır materiallar xarici ölkələrdən idxal olunub əlavə daşınma xərci çəkilirdisə, mebel istehsalı müəssisələrini yüksəkkeyfiyyətli mebel materialları ilə təmin edən "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılıb. Hazırda istehsal müəssisələri vaxtında və keyfiyyətli mebel materialları ilə təmin olunur", – deyən sahibkar onu da qeyd etdi ki, "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətində hər birinin aylıq istehsal gücü 10 min ədəd mebel materialları olan yeni istehsal sahələri fəaliyyət göstərir ki, burada da xammal ayrı-ayrı mərhələlərdən keçməklə rəng olaraq 100 çeşiddən çox məhsul istehsal edilir. Bu da alıcı zövqünü oxşayan müxtəlif çeşiddə mebellər istehsal etməyə imkan verir.

Yeni istehsal müəssisəsinin fəaliyyətə başlaması daxili bazarı keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayacaq. Müəssisə tam gücü ilə işləyən zaman burada 15 nəfər daimi işlə təmin olunacaq. Onu da qeyd edək ki, müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılır, müəssisədə çalışmaq üçün müraciət edən gənclər arasında seçim edilir. Bu da imkan verəcək ki, istehsal prosesi bu sahə üzrə bacarığı olan gənc mütəxəssislər tərəfindən həyata keçirilsin.

Fabrikdə mətbəx mebeli, yataq dəstləri və yumşaq mebellər istehsal ediləcək. Müəssisənin sərgi-satış salonunda alıcılara təqdim olunan, xüsusi dizaynla bəzədilmiş mebellərin nümunələri onu deməyə əsas verir ki, yaxın vaxtlarda fəaliyyətə başlayacaq fabrikin alıcı problemi olmayacaq. İstehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ölkəmizin digər regionlarında da satışa çıxarılacaq, neçə-neçə mənzilləri bəzəyəcək, insanların rahatlığına xidmət edəcək.

**Kərəm HƏSƏNOV**



# Naxçıvan ərazisindəki *“İmamzadə”*lər mənəvi sərvətlərimizdir

## *Tarixin müxtəlif dövrlərində “İmamzadə”lər sosial-siyasi və ideoloji mərkəzlər kimi fəaliyyət göstərib*

***Qədim və zəngin tarixi keçmişi ilə fərqlənən Naxçıvan çoxsaylı abidələr diyarı kimi tanınır. Bu mühüm maddi və eyni zamanda mənəvi sərvətlərimizin sırasında muxtar respublikanın müxtəlif bölgələrində yerləşən “İmamzadə”lərin özünəməxsus əhəmiyyəti, xüsusi yeri vardır. Naxçıvanın on üç əsrdən artıq bir dövrünü özündə təcəssüm etdirən bu dəyərli abidələr yalnız ölkəmizin deyil, bütövlükdə, müsəlman Şərqinin qədim sənətkarlıq, xüsusilə də memarlıq ənənələrinin, çoxəsrlik tarixi keçmişinin yadigarlarıdır.***

Naxçıvandakı “İmamzadə” komplekslərinin yaranma tarixindən danışmazdan əvvəl “İmamzadə” anlayışı haqda qısa da olsa məlumat vermək istərdik. “İmam” kəlməsi ərəb dilindən tərcümədə rəhbər, başçı, öndə duran mənalarını ifadə edir. İslam dünyasında Məhəmməd Peyğəmbərdən sonra dini rəhbər funksiyalarını yerinə yetirən və məhz bu müqəddəs şəxsiyyətin nəslindən olan şəxslər İmam adlandırılıblar. Tarixdən məlumdur ki, şiə imamları Abbasi xəlifələri tərəfindən daim təqib olunub, bu səbəbdən də onların övladları təqibdən yaxa qurtarmaq üçün müxtəlif ölkələrə, eləcə də Azərbaycana pənah gətiriblər. Azərbaycanda Səfəvi dövlətini yaradan Qızılbaş şeyxləri və onların davamçıları şiəlik məzhəbini daha da yaymaq və bu məzhəbin nüfuz dairəsini genişləndirmək üçün şiə imamları ilə bağlı olan ziyarətgahlara diqqətlə yanaşaraq bu qəbirlər üzərində türbələr inşa etdiriblər. Təsadüfi deyildir ki, Naxçıvan şəhərində, Babək rayonunun Nehrəm kəndində və Şərur rayonunun Xanlıqlar (Parçı) kəndindəki “İmamzadə”lər Səfəvilər dövründə inşa edilib.

Naxçıvan şəhəri ərazisindəki “İmamzadə” türbəsi özündə qədim və zəngin sənətkarlıq xüsusiyyətlərinə malik türk və müsəlman memarlığı ənənələrinin qarşılıqlı vəhdətini ehtiva edir. Belə ki, VIII-IX əsrlərin qovşağında Azərbaycan ərazisində xalq tərəfindən yeni qəbul edilmiş İslam dini və müsəlman mədəniyyəti elementləri insanların, xüsusilə də sənətkarların, memarların şüuruna kor-koranə surətdə hopmayıb. Qədim mədəni-mənəvi dəyərlərin bu yeni xüsusiyyətlərlə zənginləşməsi sayəsində əvvəlki abidələrdən daha fərqli, möhtəşəm və həmin dövr üçün yenilikçi xarakterli sənətkarlıq nümunələri meydana gəlib.

“Naxçıvan Abidələri Ensiklopediyası”nda Naxçıvan şəhərinin cənub-şərq hissəsində yerləşən “İmamzadə” Kompleksinə daxil olan “İmamzadə” türbəsi haqqında ətraflı məlumat verilir. Aşağıdan kvadrat şəkildə inşa edilən abidənin yuxarı hissəsində, silindrşəkilli gövdəsində memar çox ustalıqla qırmızı rəngli bişmiş kərpicləri üfüqi, tünd bənövşəyi kaşılı kərpicləri isə şaquli şəkildə simmetrik düzərək Bərdə türbəsində olduğu kimi, xalını xatırladan bəzək ünsürü və Kufi xətlə dəfələrlə təkrarlanan epiqrafik motiv: “Allah” sözü yaradıb. Türbənin içərisində əhali tərəfindən ziyarət edilən bir qəbir vardır. Qəbrin üzərində epitafiya, məzar kitabəsi olmadığı üçün onun kimə aid olduğu haqqında dəqiq fikir söyləmək mümkün deyil. Ancaq şəhərin yaşlı əhalisinin söylədiyinə görə, bu qəbirdə şiələrin səkkizinci İmamı olan İmam Rzanın oğlu dəfn edilib. Epiqraf alim İ.Əzimbəyovun keçən yüzilliyin iyirminci illərində yazdığına görə türbənin şimal-qərb tərəfində Nəsx xətti ilə ərəb dilində yazılmış kitabə olub. Kitabənin mətnindən məlum olur ki, bu imarətin bina edilməsini böyük sultan, xaqan, hörmətli əmir sultan Əbu Müzəffər şah Təhmasib Bahadır xanın hakimiyyəti zamanında mərhum, günahları bağışlanmış, Hacı Fulad bəyin oğlu, zəmanənin xeyirxahı həzrət Rufai bəy əmr edib. Kitabədə tarix qeyd olunmasa da orada vurğulanan “Əbu Müzəffər şah Təhmasib Bahadır xanın hakimiyyəti zamanında” sözlərinə əsasən türbənin inşa tarixini müəyyənləşdirmək mümkündür. Belə ki, Əbu Müzəffər şah Təhmasib Bahadır xan Səfəvi hökmdarı şah Sultan Hüseynin oğludur. Tarixdə II şah Təhmasib adı ilə tanınan bu adam 1722-32- ci illərdə hakimiyyətdə olub. Deməli, türbə XVIII əsrin 20-ci illərində inşa etdirilib.

“İmamzadə” türbələrindən biri də Babək rayonunun Nehrəm kəndində yerləşir, XVIII əsrə aid memarlıq abidəsidir. Türbə bir çox dəyişikliklərdən, təmir və bərpa işlərindən sonra dövrümüzədək gəlib çatıb. Nehrəm “İmamzadə”si türbə, təkyə və yardımçı binalardan ibarət böyük kompleksdir. Kompleksin özəyini təşkil edən türbənin içərisində ziyarət obyekti olan bir qəbir var. Qəbrin üstü sənduqə formasındadır. Qəbrin üzərində onun kimə aid olmasını bildirən kitabə yoxdur. Əhali arasında yayılan rəvayətə görə, qəbirdə şiələrin yeddinci İmamı Musa Kazımın oğlu Seyid Əqil dəfn olunub.

Fevralın 15-də Xanlıqlar kəndində muxtar respublika rəhbərinin iştirakı ilə istifadəyə verilən “Parçı İmamzadəsi” bərpadan sonra bənzərsiz sənət nümunəsi kimi diqqəti çəkir. Son illər muxtar respublika ərazisindəki dini-mədəni abidələr və ziyarətgahların bərpa olunması, milli-mənəvi dəyərlərimizin yaşadılmasına və təbliğinə diqqət yetirilməsi bu abidənin də yenidən həyata vəsiqə almasına şərait yaradıb. Onu da qeyd edək ki, “İmamzadə”nin tarixi görkəmi və qədim memarlıq elementləri qorunub saxlanılıb. Qədim “İmamzadə” türbəsi giriş və salondan ibarətdir. Aşağıdan kvadrat şəklində inşa edilən bu abidənin yuxarı hissəsi tağvari günbəzlə örtülüb. Tədqiqatçıların fikrincə, “İmamzadə” türbəsi XVI əsrə aiddir. Əvvəllər binanın daxilində bir məzar və daş kitabə olub. 1928-ci ildə tədqiqatçılar kompleksdə olarkən qəbrin üzərində ərəb əlifbası ilə “İbrahim ibn Musa” yazıldığını müəyyənləşdiriblər. 1988-ci ildə nəşr olunmuş “Xanlıqlar İmamzadəsi” adlı məlumat kitabçasında da bu məzarın yeddinci İmam Musa Kazımın oğlu İbrahimə məxsus olduğu yazılıb. Naxçıvan şəhərində yaradılmış ilk Diyarşünaslıq Muzeyindəki əlyazmalarda və elmi-tarixi məqalələrdə, həmçinin Bakıda nəşr olunmuş “Azərbaycanı öyrənmə yolu” adlı məcmuədə, Hüseyn Cavidin əmisi oğlu Məhəmməd Rəsizadənin “Şərur dairəsinə səyahət haqqında qeydlər” sərlövhəli məqaləsində də yuxarıdakı faktlar təsdiqlənir.

Bu “İmamzadə” yüksək bədii sənətkarlıq, memarlıq xüsusiyyətlərinə malik bir abidə kimi bu bölgənin hələ çox qədim dövrlərdən etibarən mühüm mədəniyyət mərkəzi kimi inkişaf etdiyini, burada yerli memarlıq məktəbi ənənələrinin formalaşdığını sübut edir. Çünki böyük bir tarixi dövr ərzində yüksək sosial, iqtisadi, siyasi və ən əsası isə mədəni tərəqqisi ilə seçilən Naxçıvanda məhz belə mükəmməl sənət nümunələrinin yaradılması təsadüfi xarakter daşımayıb. Xanlıqlar kəndindəki “İmamzadə” abidəsi xalqımızın etnomental dəyərləri, dini baxış və təsəvvürlərini, inanclarını, etnopsixoloji və əxlaqi münasibətlər sistemini, bir növ, özündə təcəssüm etdirən mühüm bir ziyarətgahdır.

Xanlıqlar kənd tam orta məktəbinin tarix müəllimi Adil Cabbarov deyir ki, bu abidə qədim, şanlı tarixi ilə seçilən doğma Naxçıvanımızın zəngin çoxəsrlik mənəvi mühitinin göstəricisi, həmçinin onun yaşadıcısıdır. Bundan sonra da bu ziyarətgah yerli əhalinin öz milli-mənəvi dəyərlərini, vətənə sədaqətlilik duyğularını, humanist, saf əxlaqi baxış və münasibətlər sistemini, qədim tarixinə, ulu əcdadlarına, dininə, imanına həqiqi ehtiram duyğularını yaşatmağa şərait yaradan müqəddəs, pak məkan olacaq. Bu abidənin bərpası muxtar respublikada dövlətimizin dünya mədəniyyətinə, bəşər sivilizasiyasına zaman-zaman əvəzsiz töhfələr verdiyinin sübutlarından biridir.

AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli ilə söhbət zamanı deyir ki, Xanlıqlar kəndindəki “İmamzadə”nin bərpası muxtar respublikada tarix və mədəniyyət abidələrinin bərpası, qorunması və tədqiqi istiqamətində həyata keçirilən mühüm tədbirlərin davamıdır. Muxtar respublika rəhbərinin xüsusi diqqəti nəticəsində Əlincəçay Xanəgahı, Naxçıvan “İmamzadə”si, Qarabağlar Memarlıq Kompleksi, Möminə xatın, Yusif Küseyiroğlu türbələri, Əshabi-Kəhf ziyarətgahı, Ordubad buzxanası və onlarla digər abidələr bərpa edilərək xalqımıza qaytarılıb. Hazırda isə Naxçıvanda iki mühüm tarixi abidə – Əlincəqala və Gülüstan türbələri bərpa olunur. Dini, tarixi memarlıq abidələrinin ümumi və oxşar xüsusiyyətlərinin mövcudluğuna baxmayaraq, onların kifayət qədər spesifik, fərqləndirici cəhətləri mövcuddur. Xanlıqlar kəndindəki “İmamzadə”nin unikallığını şərtləndirən mühüm göstəricilər sırasında ən önəmli keyfiyyətlərindən biri də onun yalnız türbə, “İmamzadə” kimi mövcudluğunu məhdudlaşdırmamasıdır. Daha dəqiq ifadə etsək, bu abidə bütöv bir dini-mədəni və tarixi memarlıq kompleksidir. “İmamzadə”nin bərpası zamanı abidənin orijinallığı qorunub saxlanılıb, ümumi memarlıq ansamblı xüsusi diqqətlə mühafizə edilib.

Bu tip abidələr haqda onu da qeyd etmək olar ki, belə məkanların vəqfləri də olub. Xeyriyyə məqsədilə fəaliyyət göstərən vəqflərin gəliri isə “təamiyyə”, “təvliyyət”, “qurban”, “türbədarlıq”, “cibayət”, “fərraşiyyə” şəklində təmənnasız surətdə insanların, ehtiyacı olanların tələbatlarının ödənilməsinə sərf edilib.

Məhz Naxçıvan şəhərində, Nehrəm kəndində və Xanlıqlar kəndindəki tarixi abidələrin möhtəşəmliyi müqəddəs dini məkanlarımızın – “İmamzadə”lərin yalnız ibadətgah və ziyarətgah kimi deyil, həm də onların böyük bir tarixi dövr ərzində dəyərli elm, təhsil, ürfan mərkəzləri olaraq fəaliyyət göstərməsini sübuta yetirir. Təsadüfi deyildir ki, hələ orta əsrlər dövründən etibarən bu cür müqəddəs məkanlarımız gənc nəslin təlim və tərbiyə olunması, onların dini elmlərlə yanaşı, fundamental dünyəvi elmləri də dərindən mənimsəmələrinə, geniş dünyagörüşlü şəxsiyyətlər kimi düzgün formalaşmalarına şərait yaradan mərkəzlər olub. Eyni zamanda “İmamzadə” kompleksləri o dövrdə məscid və digər ibadət yerləri kimi yüksək intellektual səviyyəyə, müfəssəl elmi-nəzəri biliklərə, həqiqi ali insani dəyərlərə sahib olan əsl ziyalı şəxsiyyətlərin, Naxçıvanın sayılıb-seçilən ağsaqqallarının, din-iman əhli olan insanlarının toplaşaraq fikir mübadiləsi, elmi müzakirələr apardıqları əvəzsiz mərkəzlər rolunu oynayıblar.

*Naxçıvanda “İmamzadə” ziyarətgahları artıq böyük bir tarixi müddət ərzində İslam dininin müqəddəs məkanlarından biri hesab edilib və edilməkdədir. Bu mənada, “İmamzadə”ləri xalqımızın milli-mədəni, eləcə də mənəvi sərvəti kimi qoruyub gələcək nəsillərə ötürməliyik.*

**Səbuhi HÜSEYNOV**

# Multikulturalizm və din münasibətləri

***Qıvraq qəsəbəsində “Multikulturalizm və din münasibətləri” mövzusunda maarifləndirici tədbir olub. Tədbiri giriş sözü ilə açan Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini, Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyanın sədri Hacıraddin Mehbalıyev din və mədəniyyətlərarası münasibətlərdən danışıb.***

Komissiyanın sədri bildirib ki, ümummilli lider Heydər Əliyevin siyasi iradəsi ilə Azərbaycanın tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələri hüquqi və siyasi müstəvidə yenidən bərpa edilərək keyfiyyətcə yeni mərhələyə yüksəldilib. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti ölkəmizi çoxmillətli diyara, dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevirib. Bu, Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılması, multikulturalizmin Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi mövcud olduğunu göstərir. Dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2016-cı il ölkəmizdə “Multikulturalizm ili” elan olunub.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev bildirib ki, Naxçıvan Muxtar Respublikasında milli-mənəvi dəyərlərin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, dini bayramlar yüksək səviyyədə qeyd edilir. Muxtar respublikanın məscidlərində İslam dininin əsaslarına uyğun olaraq ibadətlər təşkil edilir, tolerantlıq prinsipləri ciddi şəkildə qorunur. İslami dəyərlərdən irəli gələn ənənələr yaşadılır, azsaylı xalqların nümayəndələrinin də mədəni irsinin qorunmasına və dini azadlığına hörmətlə yanaşılır. Müxtəlif məzhəblərə mənsub insanların məscidlərdə birgə ibadət etmələri təmin olunur. İslam dini üzrə gənc, peşəkar dini və dünyəvi biliklərə malik ixtisaslı kadrların hazırlanması diqqət mərkəzində saxlanılır. 2015-2016-cı tədris ilində “Naxçıvan” Universitetində Dinşünaslıq ixtisasının açılması bu sahəyə göstərilən dövlət qayğısını və muxtar respublikada dövlət-din münasibətlərinin yüksək səviyyədə qorunub saxlanılmasını ifadə edir.

Kəngərli rayonunda bu sahədə görülən işlərdən bəhs edən Kəngərli Rayon Dini İcmasının sədri Baxşəli Canbaxşılı komissiyanın fəaliyyəti barədə geniş məlumat verib, həyata keçirilən tədbirlərdən danışıb. Baxşəli Canbaxşılı deyib ki, komissiya üzvləri tərəfindən “İslamda tolerantlıq”, “Azərbaycanda multikulturalist dəyərlər” və başqa mövzularda maarifləndirici tədbirlər keçirilib, belə tədbirlərdə gənclərin iştirakına üstünlük verilib.

Qeyd edilib ki, rayonun qəsəbə və kəndlərində 14 nəfər digər millətlərin nümayəndəsi yaşayır. Onlara heç bir sahədə fərq qoyulmur, onların hüquqları əsaslı şəkildə qorunur, dövlətimizin göstərdiyi bütün diqqət və qayğılardan yararlanır və imtiyazlardan istifadə edirlər.

İcma sədri onu da bildirib ki, hazırda Kəngərli rayonunda 8 məscid və 2 pir fəaliyyət göstərir. Son illərdə muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində rayonda 3 məscid və 2 pir əsaslı şəkildə təmir olunub.

**Xəbərlər şöbəsi**

# *“Kamança”* tamaşası Babək rayonunda göstərilib



***Dünən Kazım Ziya adına Ordubad Rayon Xalq Teatrı Babək Rayon Mədəniyyət Evində böyük yazıçı və dramaturq Cəlil Məmmədquluzadənin birpərdəli “Kamança” pyesini yeni quruluşda tamaşaçılara təqdim edib.***

Tamaşadan əvvəl çıxış edən Ordubad Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Əliyev bildirib ki, bu gün nümayiş etdiriləcək “Kamança” tamaşasındakı hadisələr yüz il bundan əvvəl Qarabağ torpağında baş versə də, bu günümüzlə səsləşir.

Sonra teatrsevərlər “Kamança” pyesi əsasında hazırlanmış tamaşaya baxıblar. Tamaşanın əsas surətlərindən olan Qəhrəman yüzbaşı (Oruc Əliyev) ətrafına qorxmaz gəncləri toplayaraq öz həmvətənlərini ermənilərdən müdafiə edir. Oruc Əliyev Qəhrəman yüzbaşı surətini təbii, öz torpağına bağlı bir insan kimi təqdim edə bilir. Nadir Məhərrəmovun oynadığı erməni kamançaçalan Baxşı da tamaşanın dinamik və maraqlı tipi kimi yadda qalır. Cəlil Məmmədquluzadənin xalqımızın dərin humanizmini göstərən və sənətkarlığı ilə seçilən bu kiçikhəcmli pyesində dövrün incə mətləblərini anlatmaq üslubu hər an hiss olunur.

Tamaşadakı Qaraş (Emin Yusifli), Əziz (Rəcəb Quliyev), Həsənli (Xəyal Bayramov), Novruz (Arzu Quliyev), Zeynəb (Günəş Ağayeva) kimi surətlər də dövrün mənzərəsini canlandırırlar.

“Kamança” tamaşasının sonluğu – final hissəsi bu günümüzlə əlaqələndirilib. Öz elini, həmvətənlərini, torpağını qoruyan azərbaycanlıların həlak olması, Dədə Qorqudun (Həsən Məmmədov) səhnəyə gələrək xalqı ayıq olmağa səsləməsi, Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi, başqa bədii təsvir vasitələri mövzunun bu gün də aktual olduğunu göstərir.

“Kamança” tamaşasının rejissoru Günəş Ağayeva, musiqi tərtibatçısı Qurban Rəhimov, tərtibatçı rəssamı Hikmət Əliyevdir.

Tamaşa rayon ictimaiyyəti tərəfindən maraqla qarşılanıb.

**Əli RZAYEV**

Jurnalist araşdırması

# Ətraf mühitin mühafizəsi hər kəsin borcudur

## Təəssüf ki, aramızda hələ də ətraf mühitin qorunmasına və təmizliyinə biganə yanaşanlar var

***Bu günlərdə muxtar respublikamızın dəmiryol nəqliyyatı haqqında bir yazı hazırlamaq üçün uzun illərdən bəri istifadə etmədiyim sərnişin qatarına minməli oldum. Məqsədim bir zamanlar naxçıvanlıların uzaq yol səfərləri zamanı istifadə etdiyi, indi isə çoxlarının yaddaşında nostalji xatirələrə çevrilmiş qatarların sərnişini olmaq duyğularını yenidən yaşamaq, muxtar respublikamızın cənub sərhədləri boyunca bir neçə saatlıq olsa da, yenidən o xatirələri təzələmək idi. Səfərimiz uğurlu oldu, yəni düşündüklərimizi reallaşdıra bildik, eyni zamanda bir daha onun fərqinə vardıq ki, muxtar respublika blokada vəziyyətinə salınsa da, nə yaxşı ki burada dəmir yolu nəqliyyatının fəaliyyətinə son verilmədi. Əksinə, yerli imkanlar hesabına, fədakar insanların səyi nəticəsində bu nəqliyyat infrastrukturunda mümkün olan hər bir şey edildi ki, vaqonlarımız hərəkətsiz, sərnişinlərimiz qatarsız qalmasın.***

Bu nəqliyyat növü çoxlarının gündəlik, həftədəbir və yaxud yolu düşdükcə istifadə etdiyi ən ucuz sərnişindaşıma vasitəsidir. Qeyd etdiyimiz kimi, biz də bir neçə saatlıq bu qatarların sərnişini olduq: həm Naxçıvan-Ordubad, həm də Naxçıvan-Şərur istiqamətində. Sərnişinlərlə, qatar bələdçiləri ilə söhbətləşmək imkanımız oldu və növbəti yazılarımızın birində bunu oxucularımızla da bölüşəcəyik. Lakin bizi məyus edən məqamlarla da rastlaşdıq ki, həmin məqamlar hazırda oxuduğunuz bu yazının yazılmasına səbəb oldu. Söhbət ondan gedir ki, qatarla bəzi yaşayış məntəqələrinin yaxınlığından keçərkən bir neçə xoşagəlməz mənzərələrin şahidi olduq və bizdə belə bir təəssürat yarandı ki, aramızda hələ də ətraf mühitin qorunmasına və təmizliyinə biganə yanaşan insanlar var. Hansı ki həmin insanlar dəmir yolu boyunca bəzi ətraf ərazilərin müxtəlif tullantılarla çirkləndirilməsinə öz "töhfələrini" verirlər. Məsələn, Naxçıvan-Ordubad və Naxçıvan-Şərur dəmir yolu istiqamətində gedərkən Naxçıvan şəhərinin Qaraxanbəyli və Tumbul kəndlərinin ərazilərində, sərhədboyu uzanan dəmir yolunun Qarabörk stansiyası ərazisində, Culfa rayonunun Gülüstan, Yaycı, Ordubad rayonunun Aza, Dəstə, Şərur rayonunun Xanlıqlar kəndləri ərazilərindəki bəzi yerlərdə topa, bəzi yerlərdə isə pərakəndə şəkildə yayılmış məişət tullantılarını gördükcə, aramızda yenə də təbiətə, ətraf mühitə soyuq münasibət bəsləyən vətəndaşlarımızın olduğu qənaətində qalmalı olursan. Həmin ərazilər "gözdən-uzaq, könüldən-iraq" yerlər olduğundan, o tullantılar böyük əraziləri əhatə etmədiyindən bu mövzu bir çoxları üçün o qədər də əhəmiyyətli sayılmaya bilər. Ancaq şəxsən bir neçə səbəbdən buna toxunmadan keçə bilmədik və həmin səbəblər haqqında oxucularımızı məlumatlandırmaq istədik.

Əvvəlcə qeyd edək ki, ətraf mühitin mühafizəsi ekoloji tarazlığın saxlanmasında ən birinci amildir. Bura fauna və floranın qorunmasından tutmuş yeni yaşıllıqların salınmasınadək, torpaqların münbitliyinin artırılmasından tutmuş abadlıq və təmizlik tədbirlərinədək hər şey daxildir. Hələ XX əsrin başlanğıcında Yer kürəsinin əhalisi təmiz hava alır, saf su içirdi. Dünya sonsuz, təbii sərvətlər isə tükənməz hesab edilirdi. Lakin bir neçə onilliklərdən sonra dünya olduqca təhlükəli ekoloji fəlakətlər qarşısında qaldı. Ekoloqların fikrincə, elmi-texniki inqilab çox böyük gərginliklər yaratdı: aviasiya və avtomobil nəqliyyatı, nüvə energetikası, kimya sənayesi və digər sahələr təbiət üçün zərərli sayılmaqla yanaşı, həm də təbii resursların azalmasına, bəzən tükənməsinə səbəb oldu. Alimlərin araşdırmasına görə, xammaldan və enerjidən istifadə XX əsrdə sürətlə artaraq, hətta əhali artımını da keçdi. Enerjidən istifadə 10 dəfə, xammaldan istifadə isə 9 dəfə çoxaldı. Artıq insan fəaliyyəti və onun təbiətlə qarşılıqlı əlaqəsi bu gün dünya əhalisinin əksəriyyətinin həyat şəraitinin dəyişməsinə səbəb olub. Təbii ki, bu fikirləri söyləyərkən elmi-texniki tərəqqinin, inkişafın qarşısını almaq arzusunda və ya iqtidarında deyilik. Yer üzündə o zaman ekoloji tarazlığı qorumaq mümkündür ki, hər bir ölkə, hər bir region öz təbiətini qorusun, onun sərvətlərindən qədərində istifadə etsin. Əgər buna dırnaqarası baxılarsa, ən böyük fəlakəti də elə təbiətin özü bəxş edəcək. Bunu deməkdə məqsədimiz odur ki, yaşadığımız regionun ərazicə kiçik və ya böyük olması fərq etmir, əsas olan odur ki, təbiətin dostu olmağı bacarasan. Bu gün Naxçıvanın havasının təmiz, suyunun şirin, meyvələrinin dadlı olmasının əsas səbəbi burada ekoloji tarazlığın qorunmasıdır. Əgər ötən dövr ərzində müxtəlif infrastruktur layihələri ilə bərabər, ekoloji tədbirlər həyata keçirilməsəydi, ətraf mühitin mühafizəsi lazımınca təşkil olunmasaydı, bu gün böyük problemlərlə üz-üzə qalardıq. Məsələn, yeraltı su ehtiyatlarımız azalar, su həcmi azaldığına görə yaşıllıqların həcmi də kiçilər, torpaqlarımızın böyük bir qismi şoranlaşmağa daha çox meyilli olardı. Nəticədə, ətraf mühit çılpaqlaşar, oksigenin həcmi azalar, yaşayış üçün o qədər də normal sayılmayacaq təbii mühit yaranardı. Buna görə də ətraf mühitin mühafizəsi muxtar respublikada ən yüksək səviyyədə diqqət edilən məsələlərdəndir. Necə deyərlər, ən yaxşı tərbiyə yaxşı nümunədir. Və bu istiqamətdə həyata keçirilən tədbirlər insanlarda ekoloji təfəkkürün və mədəniyyətin formalaşmasına təsir edib. Məgər bu gün küçə və meydanlarımızın təmiz saxlanılması, ucqar dağ kəndlərində belə, məişət tullantıları üçün qutuların qoyulması insanları ekoloji mədəniyyətə çağırış dəvəti sayılmırmı? Və yaxud Naxçıvana yolu düşən əcnəbi və yerli qonaqlar buranın təmizliyini hər addımda etiraf edirlərsə, təmizliyini dilə gətirirlərsə, bu, yerli sakinlərin ətraf mühitə münasibətinin göstəricisi deyilmi? Bəs onda nəyə görə bəzilərimiz bu nümunənin üstündən xətt çəkməklə minlərlə insanın zəhmətini yerə vururuq. Anlamaq istəmirik ki, ətraf mühiti qorumaq təkcə göz qabağında olan ərazilərin təmizliyini qorumaqla bitmir.



Naxçıvan şəhərinin ərazisi



Culfa rayonunun ərazisi



Ordubad rayonunun ərazisi

Bu gün Araz çayının ətrafına atılan hər bir tullantı müxtəlif infeksion xəstəliklər üçün münbit şərait yaradır, ərazinin çirklənməsinə səbəb olur. Halbuki çoxumuz fərqində deyilik ki, Araz çayının keçdiyi bölgələr içərisində yeganə yer Naxçıvandır ki, çayboyu bütün ərazilər xüsusi mühafizə olunan təbiət əraziləridir. Digər tərəfdən nəzərə alaq ki, muxtar respublikamıza gələn turistlərin Naxçıvanla tanışlığında dəmir yolundan da istifadə etmək imkanları var. Məhz bu aspektlərdən baxdıqda yarana biləcək xoşagəlməz hallardan hər birimiz narahat olmalıyıq. Eyni zamanda unutmayaq ki, Azərbaycan Respublikası Konstitusiyasının 78-ci maddəsinə görə, ətraf mühitin qorunması hər bir şəxsin borcudur. Yəni ətraf mühitin mühafizəsi cinsindən, yaşından, vəzifəsindən asılı olmayaraq, hər kəsin vətəndaşlıq borcu kimi Əsas Qanunumuzda öz əksini tapıb. Belə olan halda nəyə görə biz vətəndaş mövqeyi ortaya qoymayaq? Yeri düşmüşkən, mövzuya birbaşa aidiyyəti olan bir hadisəni misal çəkməklə dünyanın dəqiq və intizamlı xalqlarından olan almanların düşüncəsində vətəndaş mövqeyinin hansı səviyyəyə malik olduğunu da oxucularımızla bölüşmək istərdim. Belə ki, bir müddət bundan əvvəl yaxın tanışlarımdan biri Almaniyada səfərdə olarkən kirayələdiyi avtomobillə şəhəri gəzir. Gəzinti zamanı insanların az olduğu sakit bir qəsəbə yolundan keçərkən əlindəki plastik su butulkasını pəncərədən çölə atır. Dostumuz heç nə olmamış kimi sonra Azərbaycana qayıdır və bir neçə gün keçdikdən sonra ünvanına cərimə haqqında arayış gəlir. Sən demə, tanışımız bu hərəkətə yol verərkən arxadan gələn digər avtomobilin alman sürücüsü bunu görür və yaşadığı ərazinin müvafiq dövlət qurumuna bununla bağlı şikayət edir. Kirayə götürülən avtomobilin nömrə nişanı ilə dostumuzun ünvanı təyin edilir və qısa müddətdə o, etdiyi məsuliyyətsizliyin əvəzini Azərbaycanda ödəməli olur. Bəli, əsl vətəndaş mövqeyi budur. Bunu başqa cür də adlandırmaq olar, əsas olan odur ki, ətraf mühitin mühafizəsində hər birimizin məsuliyyəti var: istər müsbət, istərsə də mənfi mənada. Təəssüf ki, aramızda ikincilərdən olanlar da var.

**Səbuhi HƏSƏNOV**

## Hüquqi-maarifləndirmə günün tələbidir

***Sual: Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində müvəqqəti olma müddəti necə müəyyənləşdirilir və hansı müddətə uzadılır?***

***Cavab:*** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğun olaraq, viza əsasında Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddətindən, viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin isə ölkədə müvəqqəti olma müddəti Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, 90 gündən artıq ola bilməz. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində müvəqqəti olma müddəti 60 günədək uzadıla bilər.

***Sual: Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti hansı hallarda uzadılır?***

***Cavab:*** Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti onların və ya qanuni nümayəndələrinin müraciəti əsasında aşağıdakı hallarda uzadıla bilər:

*- tranzit keçid zamanı məcburi dayanmalar baş verdikdə;*

*- əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində təcili müalicə olunmasına zərurət yarandıqda;*

*- əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında yaşayan yaxın qohumları ağır xəstələndikdə və ya vəfat etdikdə;*

*- xidməti zərurətlə əlaqədar Azərbaycan Respublikasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən nəzərdə tutulmuş işlərin başa çatdırılmadığına dair həmin şəxsləri ölkəyə dəvət etmiş təşkilat tərəfindən əsaslandırılmış vəsatət verildikdə.*

***Sual: Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində müvəqqəti olma müddətinin uzadılması üçün dövlət rüsumu nə qədərdir?***

***Cavab:*** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində müvəqqəti olma müddətinin uzadılması üçün dövlət rüsumu aşağıdakı məbləğlərdə müəyyən edilmişdir:

*- yetkinlik yaşına çatmış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti olma müddətinin uzadılması barədə qərarın verilməsinə görə:*

*30 günədək – 30 manat*

*60 günədək – 60 manat*

*- yetkinlik yaşına çatmayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti olma müddətinin uzadılması barədə qərarın verilməsinə görə:*

*30 günədək – 15 manat*

*60 günədək – 30 manat*

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

**İtmişdir**

Naxçıvan şəhəri, Tolstoy küçəsi, 5, mənzil 1-də yaşayan Abbasova Lahirə Yaqub qızının adına olan evin MH-0030486 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 145